# HƏYATININ ƏSAS TARİXLƏRİ

*Sabit Kərim oğlu Mahmudov 1910-cu il mart ayının 26-da Şəki şəhərində anadan olmuşdur. İbtidai təhsilini Şəki nümunə zəhmət məktəbində almışdır.*

| | |
|---|---|
| 1921 | Şəki nümunə zəhmət məktəbini bitirmişdir. |
| 1923 | Bakı Darülmüəlliminə daxil olmuşdur. |
| 1926 | Bakı Darülmüəlliminin ədəbiyyat fakültəsini bitirmişdir. |
| 1926 | Şəkidə oxuduğu ibtidai məktəbdə 3 il müəllimlik etmişdir. |
| 1926 | Yaradıcılığa “Molla Nəsrəddin”də “Şeyx Samit” imzası ilə dərc etdirdiyi “Rabfak kitabxanasında həyat lövhələri” felyetonu ilə başlamışdır. |
| 1927 | Şəkidə çıxan “Qızıl qələm” məcmuəsində ilk şeiri çap olunmuşdur. |
| 1929-1932 | Azərbaycan Dövlət Pedaqoji İnstitutun ədəbiyyat fakültəsində oxumuşdur. |
| 1929-1933 | “Gənc işçi” qəzetinin redaksiyasında çalışmışdır. |
| 1932-1933 | “İnqilab və mədəniyyət” jurnalının məsul katibi olmuşdur. |
| 1932 | “Pozğun” adlı ilk hekayələr kitabı nəşr edilmişdir. |
| 1933-1934 | Şəki MTS siyasi şöbəsində “Mübariz” qəzeti redaksiyasında işləmişdir. |
| 1934-1936 | Azərbaycan Dövlət Dram Teatrının ədəbi hissə müdiri işləmişdir. |
| 1935 | Azərbaycan Yazıçılar İttifaqının üzvü olmuşdur. |
| 1935 | Azərbaycan Yazıçılar İttifaqında uşaq bölməsinin rəhbəri olmuşdur. |
| 1936-1937 | Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun ssenari kurslarında təhsil |

| | |
|---|---|
| | almışdır. |
| 1937-1938 | Bakı Kinostudiyasında ssenari şöbəsinin müdiri işləmişdir. |
| 1938 | "Toy" adlı ilk komediyasını yazmışdır. |
| 1938 | Azərbaycan Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi işləmişdir. |
| 1939 | "Toy" komediyası Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. |
| 1939-1940 | C.Cabbarlı adına Teatr Muzeyində elmi işçi işləmişdir. |
| 1941-1942 | Azərbaycan Nazirlər Sovetinin İncəsənət İşləri İdarəsində teatr şöbəsinin müdiri olmuşdur. |
| 1942-1944 | Azərbaycan Nazirlər Sovetinin İncəsənət İşləri İdarəsində rəis müavini olmuşdur. |
| 1943 | Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi fəxri adı verilmişdir. |
| 1945-1946 | Bakı Kinostudiyasının direktoru olmuşdur. |
| 1945-1946 | Kinematoqrafiya nazirliyində nazir müavini işləmişdir. |
| 1947-1951 | Azərbaycan Yazıçılar İttifaqında dramaturgi-ya üzrə məsləhətçi və teatr institutunda müəllim işləmişdir. |
| 1970 | "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir. |
| 1970 | 23 sentyabrda Bakı şəhərində vəfat etmişdir. |